**Məişət zorakılığı ilə mübarizə üzrə Azərbaycan Respublikasının milli qanunvericiliyinin müvafiq beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə təklif edilən dəyişikliklər:**

**Müqayisəli Cədvəl**

Normativ hüquqi aktın layihəsinin normayaratma orqanına təqdim edilməsi qaydası Normativ hüquqi aktlar haqqında Konstitusiya qanunun və müvafiq normayaratma orqanının aktları ilə müəyyən edilir *(Normativ hüquqi aktlar haqqında konstitusiya qanunu, maddə 48).*

Bununla belə Konstitusiya qanunun normayaratma təşəbbüsünün subyekti olmayan fiziki və hüquqi şəxslər normativ hüquqi aktın qəbul edilməsi ilə bağlı təkliflərini və ya normativ hüquqi aktın layihəsini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq səlahiyyətlərə malik olan dövlət orqanlarına təqdim edə bilərlər. Bu halda bu Konstitusiya Qanununun 48-ci maddəsinə riayət olunmaya bilər.

Konstitusiya qanununa əsasən (maddə 48.5) qanunda dəyişikliklər edilməsi haqqında qanun layihələrinə maddənin və ya qanunun digər struktur elementinin redaksiyası və layihə ilə qanuna təklif edilən dəyişikliklər nəzərə alınmaqla maddənin və ya qanunun digər struktur elementinin redaksiyası göstərilməklə müqayisəli cədvəl əlavə olunur.

**Müqayisəli cədvəl ilə dəyişikliklər təklif edilən qanunlara daxildir:**

1) Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu (cədvəl 1)
2) Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsi (cədvəl 2)
3) Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi (cədvəl 3)
4) Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi (cədvəl 4)
5) Azərbaycan Respublikası Cinayət Məcəlləsi (cədvəl 5)

**“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununa təklif olunan dəyişikliklərə dair müqayisəli cədvəl**

| Cari versiya | Təklif olunan | Əsaslandırıcı qeydlər |
|---|---|---|
| Maddə 1. Əsas anlayışlar<br><br>1.0.1. məişət zorakılığı - yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması; | Maddə 1. Əsas anlayışlar<br><br>1.0.1. məişət zorakılığı - yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki, cinsi, psixoloji, iqtisadi zərər vurması, təhdid və məcbur etməsi; | İstanbul Konvensiyasında müəyyən edilən anlayışa uyğunlaşdırma.<br><br>İstanbul Konvensiyası Maddə 3 (a və b) |
| 1.0.2. məişət zorakılığından zərər çəkmiş şəxs (bundan sonra - zərər çəkmiş şəxs) - bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona qarşı qəsdən törətdiyi bu Qanunun 1.0.3-1.0.6-cı maddələrində nəzərdə tutulmuş hərəkətlər nəticəsində fiziki və ya mənəvi zərər çəkmiş şəxs; | 1.0.2. məişət zorakılığından zərər çəkmiş şəxs (bundan sonra - zərər çəkmiş şəxs) - bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona qarşı qəsdən törətdiyi bu Qanunun 1.0.3-1.0.6-cı maddələrində nəzərdə tutulmuş hərəkətlər nəticəsində fiziki, cinsi, psixoloji və ya iqtisadi zorakılıqdan, təhdid və məcbur etmədən zərər çəkmiş şəxs və ya belə zərərə məruz qalma riski altında olan şəxs; | |
| 1.0.5. məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləri; | 1.0.5. məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə, *habelə işləməyə, təhsil almağa və başqa iqtisadi xarakterli hüquqlarından istifadə etməyə qadağaların və ya başqa maneələrin yaradılmasına yönəlmiş hərəkətləri;*<br><br>1.0.10. *məişət zorakılığından zərər çəkmiş uşaq – bu Qanunda müəyyən edilmiş məişət zorakılığının hər hansı formasına məruz qalmış və ya bu zorakılığın şahidi olmuş 18 yaşına çatmamış şəxs;* | |

| | | |
|---|---|---|
| | *1.0.11. məişət zorakılığı törətmiş şəxs barəsində təcili qadağanedici tədbirlər - zərərçəkmiş şəxsin hüquqlarının və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə zorakılıq törətmiş və ya belə zorakılığı törətmə riski olan şəxsin hüquqlarının təcili müvəqqəti məhdudlaşdırılması və onun üzərinə müəyyən qadağaların və vəzifələrin qoyulması;*<br><br>*1.0.12. məişət zorakılığı törətmiş şəxs üçün proqram - risklərin qiymətləndirilməsinin nəticələri əsasında formalaşan və zorakılıq törədən şəxsin zorakı davranışının dəyişdirilməsinə, şəxsi münasibətlərdə yeni, aqressiv olmayan davranış modelinin formalaşmasına yönəlmiş tədbirlər kompleksi;*<br><br>*1.0.13. zərərçəkmiş şəxs üçün proqram - dövlət qurumlarının, yerli özünüidarəetmə orqanlarının, ixtisaslaşmış qeyri-hökümət təşkilatlarının və özəl təşkilatların zərərçəkmiş şəxsi emosional asılılıqdan, özünə şübhədən azad etməyə, öz ləyaqətini müdafiə etməyə və şəxsi münasibətlərdə öz hüquqlarını qorumaq qabiliyyətini inkişaf etdirməyə yönəlmiş tədbirlər kompleksi;* | |
| Maddə 3. Məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsiplər | Maddə 3. Məişət zorakılığının qarşısının alınması sahəsində əsas prinsiplər<br><br>*3.0.7. məişət zorakılığından zərər çəkmiş şəxslər və ya zorakılıq törədən şəxslər barədə məlumat vermiş fiziki şəxslər haqqında məlumatların məxfiliyi.* | |
| | *Maddə 3-1. Hüquq bərabərliyi*<br><br>*Bu qanunda müəyyən edilən tədbirlər həyata keçirilərkən hərkəsin, xüsusilə də zərərçəkmiş şəxslərin hüquqlarının müdafiəsi üçün tədbirlər görərkən cinsinə, irqinə, dərisinin rənginə, dilinə, dininə, siyasi və ya digər baxışlarına, milli və ya ictimai mənsubiyyətinə, milli azlıqlara mənsub olmasına, mülkiyyətinə, doğumuna, cinsi oriyentasiyasına, gender* | |

| | | |
|---|---|---|
| | *mənsubiyyətinə, yaşına, sağlamlıq vəziyyətinə, əlilliyinə, ailə vəziyyətinə, miqrant və ya qaçqınlıq statusuna malik olmasına və ya digər əlamətlərinə görə heç bir ayrıseçkiliyə yol verilmir.* | |
| Maddə 4. Bu Qanunun şamil edildiyi şəxslər | *4.0.5. nikah olduğu dövrdə və ya nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan indiki və ya keçmiş ər-arvadın yaxın qohumları (valideynləri, uşaqları, nənələri, babaları, nəvələri, doğma və ögey qardaşları və bacıları, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər) və* | |
| Maddə 5. Məişət zorakılığı barədə şikayətlərə baxan dövlət orqanları | Maddə 5. Məişət zorakılığı barədə şikayətlərə baxan dövlət orqanları<br><br>*5.3. Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində tədbirlərin həyata keçirilməsi vəzifələri həvalə edilmiş icra hakimiyyəti orqanlarına aşağıdakılar daxildir:*<br>*1) Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları;*<br>*2) Daxili İşlər Nazirliyi orqanları;*<br>*3) Təhsili idarəetmə orqanları, dövlət, bələdiyyə və özəl təhsil müəssisələri;*<br>*4) Səhiyyə orqanları;*<br>*5) Pulsuz hüquqi yardım göstərən qurumlar;*<br>*6) Məhkəmələr;*<br>*7) Prokurorluq orqanları;*<br>*8) Probasiya məsələləri üzrə səlahiyyətli orqanlar;*<br>*9) Sosial müdafiə orqanları və ona tabe sosial müdafiə müəssisələri.* | |
| Maddə 6. Məişət zorakılığı barədə şikayətlərin araşdırılması<br><br>6.1.2. fiziki və ya hüquqi şəxslərdən, dövlət və yerli özünüidarə orqanlarından, o cümlədən təhsil və ya *tibb* müəssisələrindən, qeyri-hökumət təşkilatlarından, kütləvi informasiya vasitələrindən daxil olmuş müraciətlər. | 6.1.2. fiziki və ya hüquqi şəxslərdən, dövlət və yerli özünüidarə orqanlarından, o cümlədən təhsil və ya *tibb* müəssisələrindən, qeyri-hökumət təşkilatlarından *daxil olmuş müraciətlər və kütləvi informasiya vasitələrində yayılmış məlumatlar.*<br><br>6.2. Dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxsləri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının | İstanbul Konvensiyası 55-ci maddə. Zərərçəkənin şikayəti (ex parte) və vəzifə səlahiyyətlərinə görə (ex officio) aparılan icraatlar |

| | | |
|---|---|---|
| 6.2. Dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxsləri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları, təhsil və *tibb* müəssisələri, yardım mərkəzləri xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı şikayətləri bu Qanunun 5-ci maddəsində müəyyən edilmiş müvafiq icra hakimiyyəti orqanlarına təqdim edirlər.<br><br>6.3. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır. | müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları, təhsil və *tibb* müəssisələri, yardım mərkəzləri xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı şikayətləri *və məlumatları* bu Qanunun 5-ci maddəsində müəyyən edilmiş müvafiq icra hakimiyyəti orqanlarına təqdim *etməlidirlər.*<br><br>6.3. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır. *Yetkinlik yaşına çatmayan zərərçəkmiş şəxslər barədə şikayətlərin, müraciət və məlumatların araşdırılmasında qanuni nümayəndələrin razılığı tələb olunmur.* | |
| | *Maddə 6-1. Məişət zorakılığı barədə məlumatların verilməsi*<br><br>*6-1.1. Məişət zorakılığı əməllərinin törədilməsi və ya törədiləcəyi barədə məlumatlı olan şəxslərin səlahiyyətli orqanlara müraciət etməsini təşviq etmək üçün dövlət zəruri qanunvericilik və digər tədbirlər görür.*<br><br>*6-1.2. Bu Qanunun əhatə dairəsinə daxil olan bütün zorakılıq formaları ilə əlaqədar məxfi və ya anonimliyin qorunması yolu ilə bütün ölkə miqyasında müraciət edən şəxslərə gecə-gündüz (7/24) pulsuz məsləhət verən, həmçinin qəbul edilən məlumatları zərurət olduqda müvafiq dövlət və qeyri dövlət orqanlarına yönləndirən və fəaliyyəti zəruri qanunvericilik və dövlət tərəfindən təqdim edilən resurslar ilə təmin edilmiş telefon yardım mərkəzi yaradılır.* | İstanbul Konvensiyası, maddə 24, 27 |
| - | *Maddə 6-2. Məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqları*<br><br>*6-2.1. Məişət zorakılığından zərər çəkmiş şəxsin hüquqları aşağıdakılardır:* | |

| | | |
|---|---|---|
| | *6-2.1.1 məişət zorakılığı barədə müraciətlərinə təcili və səmərəli baxılması və təkrar zorakılıq hallarının qarşısının alınması üçün dərhal müdafiə ilə təmin olunmaq;*<br>*6-2.1.2.şəxsən və ya özünün seçdiyi nümayəndəsi vasitəsilə dövlət orqanlarına və məhkəmələrə müraciət etmək və təmsil olunmaq;*<br>*6-2.1.3. məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə sahəsində vəzifələr həvalə edilmiş müvafiq icra hakimiyyəti orqanlarından öz hüquqları, həmçinin sosial xidmətlər, tibbi, sosial, psixoloji və hüquqi yardım haqqında tam və hərtərəfli məlumat almaq;*<br>*6-2.1.4. qanunvericiliklə müəyyən edilmiş qaydada sosial xidmətləri, ehtiyaclarına uyğun tibbi, sosial və psixoloji yardımı almaq;*<br>*6-2.1.5. pulsuz hüquqi yardım ilə təmin olunmaq;*<br>*6-2.1.6. məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən şərəf və ləyaqətinə hörmətlə, və humanist münasibət göstərilməsi;*<br>*6-2.1.7. zorakılıq törətmiş şəxslər tərəfindən vurulan bütün maddi və mənəvi zərərlərin, həmçinin müvafiq dövlət orqanlarının səhlənkarlığı nəticəsində vurulan zərərin əvəzinin ödənilməsini tələb etmək;*<br>*6-2.1.8. məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə sahəsində qanunvericilikdə, habelə Azərbaycanın tərəf olduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş digər hüquqlarının təmin olunmasını tələb etmək.* | |
| Maddə 7. Məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxıldıqda, cinayət təqibi ilə yanaşı görülməli tədbirlər<br><br>7.0.3. məişət zorakılığının qarşısının alınmasını, onun təkrarlanmamasını, araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyini təmin etmək; | 7.0.3. məişət zorakılığının qarşısının alınmasını, onun təkrarlanmamasını, araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyini təmin etmək üçün bu Qanunla və cinayət-prosessual qanunvericiliklə nəzərdə tutulmuş qaydada tədbirlər görmək; | İstanbul Konvensiyası Maddə 52 – Təcili qadağanedici əmrlər<br>Tərəflər səlahiyyətli orqanların təxirəsalınmaz təhlükə vəziyyətlərində məişət zorakılığı törətmiş şəxsə zərərçəkmiş və ya riskə məruz qalmış şəxsin yaşayış yerini kifayət qədər zaman müddətinə tərk etmək və cinayət əməlini törətmiş şəxsə |

| | | |
|---|---|---|
| 7.0.4. araşdırmanın aparılması zamanı tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına kömək göstərmək; | ~~7.0.4. araşdırmanın aparılması zamanı tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına kömək göstərmək;~~ | zərərçəkmiş və ya təhlükəyə məruz qalmış yaşayış yerinə daxil olmağı və ya onunla əlaqə saxlamağı qadağan etmək əmrləri vermək səlahiyyətinə malik olmasını təmin etmək üçün zəruri qanunvericilik tədbirləri və ya digər tədbirlər görürlərlidir. |
| 7.0.6. məişət zorakılığından əziyyət çəkən ailə üzvlərinə onların hüquqlarını, dövlət tərəfindən yaradılan və bu Qanunla müəyyən edilən vasitələrdən istifadə qaydalarını izah etmək; | 7.0.6. məişət zorakılığından əziyyət çəkən ailə üzvlərinə onların hüquqlarını, dövlət tərəfindən yaradılan və bu Qanunla müəyyən edilən vasitələrdən istifadə qaydalarını onların *başa düşdüyü dildə və yazılı şəkildə izah etmək, habelə zərər çəkmiş şəxsin müraciəti olduqda hüquqi müdafiə vasitələrindən və yardım xidmətlərindən istifadə etməsinə köməklik göstərmək.* | İstanbul Konvensiyası.<br>Maddə 48 – Mübahisəli məsələlərin həlli ilə bağlı məcburi alternativ proseslərin və ya cəzaların kəsilməsinin qadağan edilməsi |
| 7.0.7. zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görmək; | 7.0.7. zərər çəkmiş şəxsə mühafizə orderinin, zorakılıq törədən şəxsə *təcili qadağanedici tədbirlər barədə qərarın verilməsi* ilə əlaqədar tədbirlər görmək; | İstanbul Konvensiyası, maddə 20. Ümumi yardım xidmətləri<br>1. Tərəflər zorakılığa məruz qalmış şəxslərin zorakılığın doğurduğu fəsadlarından reabilitasiya olunmasını asanlaşdıran xidmətlərə çıxışını təmin etmək üçün zəruri qanunvericilik tədbirləri və ya digər tədbirlər görürlər. |
| | *7.0.10. Zərər çəkmiş şəxslərin Bu Qanunun 3-1-ci maddəsində nəzərdə tutulmuş əlamətlərinə görə xüsusi ehtiyaclarının nəzərə alındığı şəkildə müvafiq şərait və dəstəklə təmin etmək;* | |
| | *7.0.11. Zərərçəkmiş şəxslə zorakılıq törətmiş şəxs arasında məhkəmə və hüquq mühafizə orqanlarında, həmçinin digər xidmətlər göstərilən yerlərdə əlaqənin (görüşlərin) olmamasını təmin etmək;* | |
| | *7.0.12. mühafizə orderi və təcili qadağanedici tədbirlər barədə qərarın qüvvədə olduğu müddət ərzində onların yerinə yetirilməsinə nəzarət etmək və mühafizə orderi və təcili qadağanedici tədbirlər barədə qərarda nəzərdə tutulmuş tələblərin pozulmasının qarşısını almaq üçün tədbirlər görmək;* | |
| | *7.0.13. barəsində məişət zorakılığı ilə bağlı müraciət daxil olan şəxsin qanunla müəyyən edilmiş qaydada silah və döyüş sursatı əldə etmək, saxlamaq, gəzdirmək hüquqlarının dərhal məhdudlaşdırılması və ya verilən* | İstanbul Konvensiyası,<br>Maddə 51 – Risklərin |

| | | |
|---|---|---|
| | *icazələrin ləğv edilməsi üçün qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək.* | qiymətləndirilməsi və idarə edilməsi<br><br>... zorakılıq əməllərini törədən şəxslərin odlu silah daşıması və ya odlu silahlardan istifadəyə çıxışının olması faktının lazımi qaydada nəzərə alındığını təmin etmək üçün zəruri qanunvericilik tədbirləri və ya digər tədbirlər görürlər. |
| 7.0.8. məişət zorakılığı ilə bağlı şikayətin araşdırılması nəticəsində cinayət işinin başlanması üçün əsaslar müəyyən olunmadığı halda həmin şikayəti aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanına göndərmək; | ~~7.0.8. məişət zorakılığı ilə bağlı şikayətin araşdırılması nəticəsində cinayət işinin başlanması üçün əsaslar müəyyən olunmadığı halda həmin şikayəti aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanına göndərmək;~~ | |
| Maddə 8. Cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada araşdırılmayan məişət zorakılığı ilə bağlı dövlətin vəzifələri<br><br>8.0.1. məişət zorakılığı ilə bağlı daxil olmuş məlumatı qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul etmək, qeydiyyatdan keçirmək, araşdırmanı mümkün qədər qısa müddətdə aparmaq, müvafiq hallarda dərhal hadisə yerində araşdırma aparmaq və tərəfləri ayrılıqda dinləmək;<br><br>8.0.3. müraciət etmiş şəxsə onun hüquqlarını, zorakılığı törədən şəxsin məsuliyyətə cəlb edilməsi, habelə bu məsələ ilə bağlı məhkəməyə müraciət qaydasını izah etmək; | 8.0.1. məişət zorakılığı ilə bağlı daxil olmuş məlumatı qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul etmək, qeydiyyatdan keçirdikdən dərhal sonra araşdırmalara başlamaq, müvafiq hallarda dərhal hadisə yerində araşdırma aparmaq və tərəfləri ayrılıqda dinləmək;<br>Qeyd: *Zərərçəkmiş şəxsin təqdim etdiyi məlumatlar məişət zorakılığı hadisəsinin baş verdiyini kifayət qədər əks etdirdiyi və ya zərərçəkmiş şəxsə vurulan zərər işin hallarından aşkar olduqda, habelə zorakılıq və belə zərər vurulması riski olduqda mühafizə orderi və təcili qadağanedici tədbirlərlə bağlı qərarın verilməsi üçün zorakılıq törədən şəxsin dinlənilməsi məcburi deyil.*<br><br>8.0.3. müraciət etmiş şəxsə onun hüquqlarını, zorakılığı törədən şəxsin məsuliyyətə cəlb edilməsi, habelə bu məsələ ilə bağlı məhkəməyə müraciət qaydasını onun başa düşdüyü dildə və *yazılı formada izah etmək, onu pulsuz hüquqi yardımla təmin etmək üçün tədbirlər görmək.* | |

| | | |
|---|---|---|
| 8.0.5. araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək; | 8.0.5. araşdırmanın aparıldığı müddət ərzində zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi *məqsədi ilə mühafizə orderi vermək, təcili qadağanedici tədbirlər barədə qərar qəbul etmək və ya belə qərarın verilməsi üçün məhkəməyə müraciət etmək;* | |
| 8.0.8. tərəflərin münasibətlərinin normallaşmasına və ailə münasibətlərinin bərpa olunmasına kömək göstərmək; | ~~8.0.8. tərəflərin münasibətlərinin normallaşmasına və ailə münasibətlərinin bərpa olunmasına kömək göstərmək;~~ | |
| 8.0.11. zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görmək; | 8.0.11. zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi, zorakılığı törədən şəxs barəsində təcili qadağanedici tədbirlər barədə qərarın qəbul edilməsi ilə əlaqədar tədbirlər görmək; | |
| 8.0.13. məlumatın konfidensiallığına dair qanunvericiliyin tələbləri nəzərə alınmaqla, məişət zorakılığı ilə bağlı məlumat bankını yaratmaq, statistik məlumatların toplanmasını təşkil etmək; | 8.0.17. məlumatın konfidensiallığına dair qanunvericiliyin tələbləri nəzərə alınmaqla, Bu qanunun əhatə dairəsiə daxil olan bütün zorakılığın bütün formaları barədə məlumat bankını yaratmaq, statistik məlumatların toplanmasını təşkil etmək və zorakılığın yayılması tendensiyasını mütəmadi izləmək üçün əhali arasında sorğuların keçirilməsini təmin etmək.<br><br>*8.0.15. məişət zorakılığın qarşısının alınması, zərərçəkmiş şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsini təmin etmək üçün 7/24 fəaliyyət göstərən telefon yardım mərkəzinin fəaliyyətini təşkil etmək;*<br><br>*8.0.16. məişət zorakılığı ilə bağlı müraciətlərin və məlumatların dərhal araşdırılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanlarının qeyri-iş günlərində fəaliyyətinin təmin edilməsi üçün tədbirlər görmək;*<br><br>*8.0.17. məişət zorakılığından zərər çəkmiş şəxslərin nikahının pozulması, həmçinin zorakılıqla bağlı müraciətlərinə baxıldığı müddətdə zorakılıq törədənlə zərərçəkmiş şəxs arasında münasibətlərin bərpası* | |

| | | |
|---|---|---|
| | *məqsədi ilə hər hansı vasitəçiliyin (mediasiya) qarşısınınn alınması üçün tədbirlər görmək.* | |
| Maddə 9. Məişət zorakılığı barədə şikayətlərə bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılmasının nəticələrinə dair qərar<br><br>9.0.1. məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə qanunvericiliklə müəyyən olunmuş məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi;<br><br>9.0.4. zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi; | 9.0.1. məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə qanunvericiliklə müəyyən olunmuş məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi, zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi *və ya uzunmüddətli mühafizə orderinin verilməsi məqsədi ilə məhkəməyə müraciət edilməsi;*<br><br>~~9.0.4. zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi;~~<br><br>*9.0.5. zorakılıq törədən şəxs barəsində təcili qadağanedici tədbirlər barədə qərarın verilməsi;* | |
| Maddə 10. Mühafizə orderi<br><br>10.2. Qısamüddətli mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan edilə bilər:<br><br>10.2.2. zərər çəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması;<br><br>10.2.3. zərər çəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi. | 10.2. Qısamüddətli *və ya uzunmüddətli* mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan *edilir:*<br>10.2.2. zərər çəkmiş şəxsin olduğu *yerdə onun razılığı olmadan qəsdən olmaq, zərər çəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması, izlənilməsi, müşahidə edilməsi;*<br><br>10.2.3. zərər çəkmiş şəxsə narahatlıq gətirən *aşağıdakı hərəkətlərin edilməsi:*<br>*10.2.3.1. telefon, internet, poçt və digər əlaqə vasitələrindən istifadə etməklə birbaşa və ya başqa şəxs(lər) vasitəsi ilə zərər çəkmiş şəxslə əlaqə saxlanılması;*<br>*10.2.3.2. zorakılıq törədən şəxsin zərərçəkmişlə məişət zəminində münasibətlərindən irəli gələn kirayə haqqı, ipoteka ödənişləri, kommunal xidmətləri üzrə haqqların və ya vergilərin, aliment və* | |

| | | |
|---|---|---|
| | *ya hər hansı hüquqi və ya digər öhdəliklərinin yerinə yetirməsini üzrlü səbəblər olmadan dayandırmağı;*<br>*10.2.3.3. zərər çəkmiş şəxsin əmlakına və ya digər şəxsi aşyalarına zərər vurulması;*<br>*10.2.3.4. internetdə və ya hər hansı digər kütləvi informasiya vasitələrində zərər çəkmiş şəxsə aid ifadələrin (yazışmalar, səs yazıları) və ya digər materialların (foto, video) zərər çəkmiş şəxsin razılığı olmadan dərc edilməsi və yayılması;*<br>*10.2.3.5. Zərər çəkmiş şəxsə qarşı digər narahatlıq gərirən digər hərəkətləri.*<br><br>*10.3.5. Zorakılıq törətmiş şəxsin müvafiq reabilitasiya proqramlarında zəruri iştirakı qaydaları.*<br><br>*10.6. Zərər çəkmiş şəxsin məişət zorakılığı təşkil edən davranışların təsirlərindən qorumaq üçün uzunmüddətli mühafizə orderinin verilməsi qısamüddətli mühafizə orderinin verilməsi ilə şərtləndirilə bilməz.*<br><br>*10.6. Qısamüddətli və uzunmüddətli mühafizə orderində, həmçinin təcili qadağanedici tədbirlər barədə qərarda müəyyən edilmiş tələblərə və qadağalara əməl edilməməsinin qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunması izah edilir.* | |
| | *Maddə 10-1. Təcili qadağan edici tədbirlər barədə qərar*<br><br>*10-1.1. Təcili qadağan edici tədbirlər barədə qərar zərər çəkmiş şəxsin həyat və sağlamlığı üçün risk olduqda, birlikdə yaşayan və ya əmlaka bərabər və ya daha çox hüquqları olan zorakılıq törəmiş şəxsdən təcili qısa müddətli qorunmasını təmin edir. Qadağanedici tədbirlər barədə qərarda müəyyən edilən qadağalar 10 gündən 60 günə qədər verilə bilər.*<br><br>*10-1.2. Qadağanedici tədbirlər barədə qərarın verilməsi barədə müraciətə müvafiq icra hakimiyyəti orqanı və ya məhkəmə ona müraciətin daxil olduğu gündən gec olmayaraq baxmalıdır.* | |

| | | |
|---|---|---|
| | *10-1.3.Təcili qadağan edici tədbirlər barədə qərarda yanaşı aşağıdakılar nəzərdə tutula bilər:*<br>*10-1.3.1. zərər çəkmiş şəxsin yaşadığı yerdən (zorakılıq törədənin qeyd olunan yaşayış sahəsinin mülkiyyətçisi olub-olmamasından asılı olmayaraq) dərhal müəyyən müddətə çıxarılma və həmin yerə daxil olmanın və orada qalmanın müəyyən müddətə qadağan edilməsi;*<br>*10-1.3.2. zərər çəkmiş şəxsin və onun himayəsində olan şəxslərin mənafeyi tələb edərsə, zorakılıq törədən şəxsin yaşadığı yerdən çıxarılaraq sığınacaqda yerləşdirilməsi;*<br>*10.4.3. zorakılıq törədən şəxsin birgə mülkiyyətdən istifadə hüququnun müəyyən müddətə məhdudlaşdırılması və ya qadağan edilməsi;*<br><br>*10.5. Təcili qadağanedici tədbirlər barədə qərar zərərçəkmiş şəxsin müraciəti, habelə öz təşəbbüsü ilə riskin qiymətləndirilməsinin nəticələrinə əsasən polis, prokurorluq və ya məhkəmə tərəfindən tərəfindən verilir. Zorakılıq törətmiş şəxsə təcili qadağanedici tədbirlər barədə qərar təqdim edilir, onun surəti isə zərərçəkmişə və ya onun nümayəndəsinə verilir.* | |
| Maddə 11. Məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və qısamüddətli mühafizə orderinin verilməsi<br><br>11.1. Məişət zorakılığı törətmiş şəxsin hərəkətləri cinayət məsuliyyəti yaratmadıqda, lakin bu hərəkətlər nəticəsində zərər çəkmiş şəxsin hüquqları və qanuni mənafeləri pozulduqda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxsə həmin və ya ona oxşar hərəkətlərin təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilə və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilə bilər. | 11.1. Məişət zorakılığı törətmiş şəxsin hərəkətləri cinayət məsuliyyəti yaratmadıqda, lakin bu hərəkətlər nəticəsində zərər çəkmiş şəxsin hüquqları və qanuni mənafeləri pozulduqda, müvafiq icra hakimiyyəti orqanları tərəfindən məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxsə həmin və ya ona oxşar hərəkətlərin təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilə və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə *orderi verilməsi təmin edilir.*<br><br>11.2. Müvafiq icra hakimiyyəti orqanı müraciət edilən vaxtdan 24 saatdan gec olmayaraq zorakılığı törədən şəxsə xəbərdarlıq edilməsi və dərhal zərər çəkmiş | |

| | | |
|---|---|---|
| 11.2. Müvafiq icra hakimiyyəti orqanı müraciət edilən vaxtdan 24 saat keçənədək zorakılığı törədən şəxsə xəbərdarlıq edir və dərhal zərər çəkmiş şəxsə 30 gün müddətinədək qısamüddətli mühafizə orderi verir. Xəbərdarlıq edilməsindən məhkəməyə şikayət verilə bilər.<br><br>11.3. Məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qısamüddətli mühafizə orderinin tələblərinə əməl etməməsi uzunmüddətli mühafizə orderinin verilməsi üçün əsas ola bilər. | şəxsə 30 gün müddətinədək qısamüddətli mühafizə orderi *verir.*<br><br>~~11.3. Məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qısamüddətli mühafizə orderinin tələblərinə əməl etməməsi uzunmüddətli mühafizə orderinin və, və ya təcili qadağanedici tədbirlər barədə qərarın verilməsi üçün əsas ola bilər.~~<br><br>*11.4. Aşağıdakı şəxslər məişət zorakılığının təkrarlanmaması barədə xəbərədarlıq edilməsi və qısamüddətli və uzunmüddətli mühafizə orderinin verilməsi, həmçinin təcili qadağanedici tədbirlər barədə qərarın qəbulu üçün ərizə ilə müraciət etmək hüququna malikdir:*<br>*11.4.1. zərərçəkmiş şəxs və ya onun qanuni və ya özünün seçdiyi nümayəndəsi;*<br>*11.4.2. uşağa qarşı məişət zorakılığı törədildikdə - uşağın valideynləri və ya digər qanuni nümayəndələri, uşağın qohumları (nənəsi, babası, yetkinlik yaşına çatmış qardaşı, bacısı), uşağın ögey anası və ya ögey atası);*<br>*11.4.3. Məişət zorakılığının qarşısının alınması üzrə bu Qanunla vəzifələr həvalə edilmiş müvafiq icra hakimiyyəti orqanları* | |
| Maddə 12. Uzunmüddətli mühafizə orderinin verilməsi qaydası<br><br>12.1. Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa əməl etmədikdə, zərər çəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir. | 12.1. *Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa əməl etmədikdə, həmçinin məişət zorakılığı ilə bağlı şikayətin halları və zərərçəkmiş şəxsin təhlükəsizliyi və ehtiyacları tələb etdikdə zərər çəkmiş şəxs, onun nümayəndəsi və ya müvafiq icra hakimiyyəti orqanları uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.* | |
| Maddə 19. Yardım mərkəzləri | | |

| | | |
|---|---|---|
| 19.3. Yetkinlik yaşına çatmamış zərər çəkmiş şəxslər yardım mərkəzində 3 ay müddətinədək, digər zərər çəkmiş şəxslər isə 2 ay müddətinədək zəruri hallarda sığınacaqla təmin oluna bilərlər.<br><br>19.6. Yardım mərkəzlərinin fəaliyyəti qaydası və qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. | 19.3. Yetkinlik yaşına çatmamış zərər çəkmiş şəxslər yardım mərkəzində 3 ay müddətinədək, digər zərər çəkmiş şəxslər isə 2 ay müddətinədək zəruri hallarda sığınacaqla təmin oluna bilərlər. *Zərər çəkmiş şəxslərin təhlükəsizliyi ilə bağlı risklərin davam etdiyi və başqa təhlükəsiz yaşayış yeri olmadığı halda yardım mərkəzində qalma müddəti eyni müddətə uzadılır.*<br><br>19.6. Yardım mərkəzlərinin fəaliyyəti qaydası və qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası qaydaları, *həmçinin Fiziki şəxslərin mənzillərindən onların razılığı əsasında xeyriyyəçilik məqsədilə yardım mərkəzi kimi istifadə olunması barədə qaydalar* müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.<br><br>*19.7. Sığınacaqlarda məişət zorakılığından zərər çəkmiş şəxslərin şəxsiyyətinin anonimliyi təmin edilir və onların razılığı olmadan barələrində zorakılıq törədən şəxsə və ya belə zorakılıq törədilməsi təhlükəsiz yaradacaq qohumlarına və ya başqa şəxslərə məlumat verilmir.*<br><br>*19.8. Sığınacaqdan çıxarılma müvafiq icra hakimiyyəti orqanına məlumat verildikdən sonra həyata keçirilə bilər.* | |
| Maddə 20. Qanunun pozulmasına görə məsuliyyət<br><br>Bu Qanunun və məişət zorakılığı ilə bağlı digər qanunvericilik aktlarının tələblərini pozan şəxslər Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. | *20.1. Bu Qanunun tələblərinin pozulmasına görə hüquqi, fiziki və vəzifəli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.*<br><br>*21. Məişət zorakılığı nəticəsində vurulmuş maddi və mənəvi zərərin ödənilməsi* | |

| | | |
|---|---|---|
| | *21.1. Məişət zorakılığından zərər çəkmiş şəxs ona dəymiş maddi və mənəvi zərərin əvəzini almaq hüququna malikdir.*<br>*21.2. Məişət zorakılığı nəticəsində dəymiş maddi və mənəvi zərərin ödənilməsi qaydası Azərbaycanın Mülki Məcəlləsi və digər qanunvericilik aktları ilə müəyyən edilir.* | |
| | | |

**“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

| **Cari versiya** | **Təklif edilir** | **əsaslandırıcı qeyd** |
|---|---|---|
| 1.1. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsinin birinci cümləsində və 6.2-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini, 7.0.8-ci, 11.1-ci maddələrində, 11.2-ci maddəsinin birinci cümləsində və 12.1-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları, 7.0.1-ci maddəsində, 19.1-ci maddəsinin birinci cümləsində və 19.5-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 17.3-cü maddəsinin birinci cümləsində, 18.1-ci, 18.4-cü və 18.5-ci maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirir; | 1.1. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsinin birinci cümləsində və 6.2-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini, 7.0.8-ci, 11.1-ci maddələrində, 11.2-ci maddəsinin birinci cümləsində və 12.1-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi [...]; | |

**Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə müqayisəli cədvəl**

| **Cari versiya** | **Təklif edilir** | **əsaslandırıcı qeyd** |
|---|---|---|
| Maddə 39. Cinayət təqibini istisna edən hallar<br><br>39.1.8. zərər çəkmiş şəxsin şikayəti olmadıqda (cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildikdə, habelə cinayət təqibinin başlanmasına prokurorun təşəbbüsü olmadığı halda cinayət təqibi ictimai-xüsusi ittiham qaydasında həyata keçirildikdə); | 39.1.8. zərər çəkmiş şəxsin şikayəti olmadıqda (cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildikdə, habelə cinayət təqibinin başlanmasına prokurorun təşəbbüsü olmadığı halda cinayət təqibi ictimai-xüsusi ittiham qaydasında həyata keçirildikdə);<br><br>*39.4. Bu Məcəllənin 39.1.8-ci maddəsində nəzərdə tutulmuş qayda məişət zəminində törədilmiş cinayətlər üzrə cinayət təqibinə tətbiq edilmir.* | |
| Maddə 51-2. Cinayət mühakimə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi<br><br>51-2.1.3. yetkinlik yaşına çatmayan şəxsin mənafeyinin qorunması zərurəti yarandıqda; | *51-2.1.3. yetkinlik yaşına çatmayan şəxsin və məişət zorakılığından zərər çəkmiş şəxsin mənafelərinin qorunması zərurəti yarandıqda;* | |
| Maddə 155. Qətimkan tədbirlərinin tətbiqi əsasları | *155.7. Təqsirləndirilən şəxs barəsində həbsə alternativ qətimkan tədbirləri seçildikdə ittihamın tam həllinədək məişət zorakılığı zəminində törədilmiş cinayətdən zərər çəkmiş şəxsin mənafeyi naminə məhkəmə təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya zərərçəkmiş şəxsin (və ya onun nümayəndəsinin) müraciəti üzrə müvafiq qətimkan tədbirləri ilə nəzərdə tutulmuş öhdəliklərdən başqa, belə cinayəti törətməkdə təqsirləndirilən şəxsə aşağıdakı qadağanedici tədbirlərdən birini və ya bir neçəsini tətbiq edə bilər:*<br><br>*155.7.1. məişət zorakılığından zərər çəkmiş şəxslə birgə yaşayış yerində mülkiyyət və başqa* | |

| | | |
|---|---|---|
| | *əmlak hüquqlarından asılı olmayaraq olmağın qadağan edilməsi;*<br>*155.7.2. uşağa qarşı və ya onun iştirakı ilə məişət zorakılığı törədildikdə uşaqla ünsiyyətin məhdudlaşdırılması;*<br>*155.7.3. məişət zorakılığından zərər çəkmiş şəxsin daimi və ya müvəqqəti yaşadığı, müvəqqəti və ya sistemli şəkildə işlədiyi, təhsil, müalicə və ya digər səbəblərdən ola biləcəyi yerlərə müəyyən məsafədən yaxınlaşmasının qadağan edilməsini;*<br><br>*155.7.4. məişət zorakılığından zərər çəkmiş şəxslə yazışmaların, telefon danışıqlarının, şəxsən və ya üçüncü şəxslər vasitəsilə rabitə və ya elektron rabitə vasitələri ilə bütün təmasların qadağan edilməsi;*<br>*155.7.4. alkoqoldan, narkomaniyadan və ya digər aludəçilikdən, başqaları üçün təhlükə yaradan xəstəliklərdən müalicə üçün cinayət törətmiş şəxslər üçün proqramdan keçmək üçün məcburi göndəriş;*<br>*155.7.5. təqsirləndirilən şəxsin qanunla müəyyən edilmiş qaydada silah və döyüş sursatı əldə etmək, saxlamaq, gəzdirmək hüquqlarının dərhal məhdudlaşdırılması və ya verilən icazələrin ləğv edilməsi.* | |
| Bəzi kateqoriyalı şəxslər barəsində icraatın xüsusiyyətləri<br>L fəsil<br><br>Yetkinlik yaşına çatmayanlar barəsində icraatın xüsusiyyətləri | Bəzi kateqoriyalı şəxslər barəsində icraatın xüsusiyyətləri<br>L fəsil<br><br>*Yetkinlik yaşına çatmayanlar və məişət zorakılığından zərər çəkmiş şəxslər barəsində icraatın xüsusiyyətləri*<br><br>*Maddə 435-3. Məişət zorakılığı zəminində törədilən cinayətlər barəsində icraatın aparılması qaydası*<br><br>*435-3.1. Məişət zorakılığı zəminində törədilən cinayətlər barəsində icraatın aparılması məhkəməyədək icraatın, həmçinin birinci, apellyasiya və kassasiya instansiyaları icraatının aparılma qaydası bu Məcəllədə nəzərdə tutulmuş ümumi qaydalarla, habelə bu Məcəllənin 428—435-ci maddələri ilə müəyyən edilir.*<br>*435-3.2. Məişət zorakılığı zəminində törədilən cinayətlər dedikdə, məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikası qanununda müəyyən edilmiş* | |

| | | |
|---|---|---|
| | *zorakılıq formalarından birinin və ya bir neçəsinin Cinayət Məcəlləsində nəzərdə tutulmuş hər hansı əməlin törədilməsi hesab edilir.*<br><br>*435-3. Məişət zorakılığı zəminində törədilən cinayətlər üzrə icraatın xüsusiyyətləri*<br><br>*435-3.1. Məişət zorakılığı zəminində törədilən cinayətlər ilə bağlı işlər üzrə cinayət prosesinin bütün mərhələlərində, o cümlədən dindirilmə zamanı yetkinlik yaşına çatmayan şahidlərin və yetkinlik yaşına çatmayan və xüsusi ilə cinsi və psixi zorakılığa məruz qalmış zərər çəkmiş şəxslərin ehtiyacları və mənafeləri nəzərə alınmalıdır.*<br><br>*435-3.2. Məişət zorakılığı zəminində törədilən cinayətlər zamanı, xüsusi ilə zorlama və cinsiyyət azadlığı əleyhinə törədilən digər cinayətlərdə zərər çəkmiş şəxslərə qanunsuz təsir edə biləcək valideynlərinin (qanuni nümayəndələrinin) və ya münasibətlərin xarakterindən asılı olaraq qərəzsizliyi şübhə doğuran digər şəxslərin zərərçəkmiş şəxs ilə görüşməsinə və cinayət prosesində birgə təmsil olunmlarına yol verilmir.*<br><br>*Maddə 435-5. İbtidai istintaqın aparılmasının məcburiliyi*<br><br>*Məişət zorakılığı zəminində törədilən bütün cinayətlər üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq şəklində aparılır.*<br><br>*Maddə 435-6. Məişət zorakılığı zəminində törədilən cinayətlər barəsində ibtidai istintaqın aparılmasının xüsusiyyətləri*<br><br>*435-6.1. Məişət zorakılığı zəminində törədilən cinayətlər barəsində ibtidai istintaq imkan daxilində müvafiq ibtidai istintaq orqanlarının xüsusi bölmələri və ya müvafiq iş təcrübəsinə malik olan şəxslər tərəfindən aparılmalıdır.*<br>*435-6.2. Məişət zorakılığı zəminində törədilən cinayətlər barəsində cinayət işi üzrə icraat sürətli və səmərəli aparılması üçün əlavə tədbirlər görülməlidir.*<br>*435-6.3. İbtidai istintaq zamanı məişət zorakılığı zəminində törədilən cinayətdən zərər çəkmiş şəxslə müstəntiq arasında əlaqələr cinayət işinin hallarının lazımi qaydada nəzərə alınması, zərər çəkmiş şəxsə hörmətlə yanaşılması, onun* | |

| | | |
|---|---|---|
| | *təhlükəsizliyinin təmin edilməsi, rifahına kömək edilməsi və xüsusi ehtiyaclarının nəzərə alınması ilə ona ziyan vurulmasına yol verilməməsi şərtilə həyata keçirilir.*<br>*435-6.4. Məişət zorakılığı zəminində törədilən cinayətlər barəsində cinayət işi üzrə icraata tərəflərin barışması, zərərin ödənilməsi, şikayətin geri götürülməsi kimi əsaslara görə xitam verilməsinə yol verilmir.* | |

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə müqayisəli cədvəl**

| **Cari versiya** | **Təklif edilir** | **Əsaslandırıcı qeyd** |
|---|---|---|
| Maddə 157. Döymə | | |
| Qeyd: Bu maddədə nəzərdə tutulmuş əməl sağlamlığa ağır, az ağır və ya yüngül zərər vurmaqla törədildikdə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur. | ***Qeyd:*** *Bu maddədə nəzərdə tutulmuş əməl məişət zorakılığı zəminində törədildikdə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur.* | |
| Maddə 158. Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması<br><br>158.1. Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə - yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir. | *158.1. Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə, şəxsin əmək və təhsil hüquqlarından məhrum edilməsinə yönəlmiş hərəkətlərə görə - üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.*<br><br>*158.4. Məişət zorakılığı qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada tətbiq edilən qısamüddətli və ya uzunmüddətli mühafizə orderi və ya təcili qadağanedici tədbirlər barədə qətnamədə nəzərdə tutulmuş tələblərin və ya qadağaların pozulmasına görə - iki min beş yüz manatdan beş min manatadək məbləğdə cərimə edilir.*<br><br>*158.5. Bu Məcəllənin 158.1, 158.2, 158.4-cü maddələrində nəzərdə* | |

| | | |
|---|---|---|
| | *tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə, yaxud həmin xəta nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkmiş şəxsə psixoloji zərər vurulmasına görə - on gündən bir ayadək müddətə inzibati həbs tətbiq* olunur. | |
| | | |

**Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə müqayisəli cədvəl**

| Cari versiya | Təklif edilir | Əsaslandırıcı qeyd |
|---|---|---|
| **Maddə 305. Məhkəmənin xüsusi icraat qaydasında baxdığı işlər**<br>305.1. Məhkəmə xüsusi icraat qaydasında aşağıdakı işlərə baxır:<br><br>*305.1.11. məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında;* | *305.1.11. məişət zorakılığından zərər çəkmiş şəxsə qısamüddətli və ya uzunmüddətli mühafizə orderinin və təcili qadağanedici tədbirlər barədə qərarın verilməsi haqqında;* | |
| ***Məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işlər üzrə icraat***<br><br>***Maddə 355-1. Ərizənin verilməsi***<br><br>*355-1.1. Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə, zərər çəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.*<br><br>*355-1.2. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizə zərər çəkmiş şəxsin yaşadığı (olduğu) yer üzrə verilir.*<br><br>***Maddə 355-2. Ərizənin məzmunu***<br><br>*Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizədə məişət zəminində qəsdən törədilən fiziki, psixi və ya cinsi zorakılıq və iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi nəticəsində zərər* | *355-1.1. Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə, həmçinin işin halları və zərər çəkmiş şəxsin təhlükəsizlik mənafeləri tələb etdikdə, zərər çəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanları qısa müddətli və ya uzunmüddətli mühafizə orderinin verilməsi, həmçinin təcili qadağanedici tədbirlər barədə qərarın verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.*<br><br>*355-1.2. Qısamüddətli, uzunmüddətli mühafizə orderinin və təcili qadağanedici tədbirlər barədə qətnamənin qəbul edilməsi barədə ərizə zərər çəkmiş şəxsin yaşadığı (olduğu) yer üzrə verilir.*<br><br>*Qısamüddətli, uzunmüddətli mühafizə orderinin və təcili qadağanedici tədbirlər barədə qətnamənin verilməsi barədə ərizədə məişət zəminində qəsdən törədilən fiziki, psixi və ya cinsi zorakılıq və iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi* | |

| | | |
|---|---|---|
| *çəkmiş şəxsə fiziki və ya mənəvi zərər vurulmasını təsdiq edən hallar şərh edilməli, ərizəçinin xahişi göstərilməlidir.* | *nəticəsində zərər çəkmiş şəxsə fiziki və ya mənəvi zərər vurulmasını təsdiq edən hallar və ya belə məhdudiyyətlərin törədilməsi riskləri və təhlükəsi şərh edilməli, ərizəçinin xahişi göstərilməlidir.* | |
| ***Maddə 355-3. Ərizəyə baxılması*** | | |
| *355-3.1. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizəyə məhkəməyə təqdim* olunduqdan sonra *3* gün *müddətinə baxılmalıdır.* | *355-3.1. Qısamüddətli, uzunmüddətli mühafizə orderinin verilməsi, təcili qadağanedici tədbirlər üzrə qərarın qəbulu barədə ərizəyə məhkəməyə təqdim olunduqdan sonrakı gündən gec* olmayaraq *baxılmalıdır.* | |
| *355-3.2. Ərizəyə, bu Məcəllənin 185-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, məişət zorakılığından zərər çəkmiş şəxsin və məişət zorakılığını törətmiş şəxsin iştirakı ilə baxılır. Ərizəyə baxılmasında məişət zorakılığı ilə bağlı araşdırmanı aparmış dövlət orqanının nümayəndəsinin iştirakı məcburidir.* | 355-3.2. ......<br>*İşin faktiki halları zorakılığı və ya zorakılıq riski aşkar etməyə imkan verirsə, ərizəyə baxılıb müvafiq qərar qəbul edilməsi üçün məişət zorakılığını törətmiş şəxsin iştirakı məcburi deyil.* | |
| *355-3.3. Tərəflərin şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısının alınması, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi məqsədi ilə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işə qapalı məhkəmə iclasında baxılır.* | *355-3.3. Tərəflərin şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısının alınması, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi məqsədi ilə qısamüddətli və uzunmüddətli mühafizə orderinin verilməsi barədə işə qapalı məhkəmə iclasında baxılır.* | |
| ***Maddə 355-4. Məhkəmənin ərizə üzrə qətnaməsi*** | | |
| *355-4.2. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamə qəbul edildikdən dərhal sonra məhkəmə iclasında elan olunur.* | *355-4.2. Qısamüddətli və uzunmüddətli mühafizə orderinin verilməsi və ya təcili qadağanedici tədbirlər barədə qətnamə qəbul edildikdən dərhal sonra məhkəmə iclasında* elan olunur. | |
| *355-4.4. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamədə məişət zorakılığını törətmiş şəxsə aşağıdakılardan biri və ya bir neçəsi qadağan edilir:*<br><br>*355-4.4.2. zərər çəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması;* | *355-4.4. Qısamüddətli və ya uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamədə məişət zorakılığını törətmiş şəxsə aşağıdakılardan biri və ya bir neçəsi qadağan edilir:*<br><br>355-4.4.2. zərər çəkmiş şəxsin olduğu *yerdə onun razılığı olmadan qəsdən olmaq, zərər çəkmiş şəxsin* | |

| | | |
|---|---|---|
| *355-4.4.3. zərər çəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi.*<br><br>*355-4.6. Uzunmüddətli mühafizə orderi 30 gündən 180 günədək müddətə verilir.* | *olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması, izlənilməsi, müşahidə edilməsi;*<br><br>355-4.4.3. zərər çəkmiş şəxsə narahatlıq gətirən *aşağıdakı hərəkətlərin edilməsi:*<br>*1). telefon, internet, poçt və digər əlaqə vasitələrindən istifadə etməklə birbaşa və ya başqa şəxs(lər) vasitəsi ilə zərər çəkmiş şəxslə əlaqə saxlanılması;*<br>*2) zorakılıq törədən şəxsin zərərçəkmişlə məişət zəminində münasibətlərindən irəli gələn kirayə haqqı, ipoteka ödənişləri, kommunal xidmətləri üzər haqqların və ya vergilərin, aliment və ya hər hansı hüquqi və ya digər öhdəliklərinin yerinə yetirməsini üzrlü səbəblər olmadan dayandırmağı;*<br>*3) zərər çəkmiş şəxsin əmlakına və ya digər şəxsi əşyalarına zərər vurulması;*<br>*4) internetdə və ya hər hansı digər kütləvi informasiya vasitələrində zərər çəkmiş şəxsə aid ifadələrin (yazışmalar, səs yazıları) və ya digər materialların (foto, video) zərər çəkmiş şəxsin razılığı olmadan dərc edilməsi və yayılması;*<br><br>*355-4.6. Qısamüddətli mühafizə orderi 60 günədək müddətə verilir. Uzunmüddətli mühafizə orderi 60 gündən 180 günədək müddətə verilir.* | |
| | | |

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə müqayisəli cədvəl**

| **Cari versiya** | **Təklif edilir** | **Əsaslandırıcı qeyd** |
|---|---|---|
| Maddə 59. Cəzanı yüngülləşdirən hallar | *59.4. Məişət zorakılığı zəminində törədilmiş cinayətlərə görə cəza təyin edilərkən bu Məcəllənin 59.1.1, 59.1.4, 59.1.5, 59.1.10, 59.1.12, 59.1.13 və 59.1.14-cü maddələrində göstərilmiş hallar cəzanı yüngülləşdirən hal qismində nəzərə alına bilməz.* | |
| Maddə 61. **Cəzanı ağırlaşdıran hallar**<br><br>61.1. Cəzanı ağırlaşdıran hallar aşağıdakılardır: | *61.1.14. cinayətin məişət zorakılığı zəminində törədilməsi.* | İstanbul Konvensiyası, maddə 49 (a)<br><br>BMT-nin Qadınlara Qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğvi Komitəsinin Qadınlara Qarşı Gender Zorakılığı Haqqında 35 saylı Ümumi Tövsiyəsi (paraqraf 29 (a) ) bütün sahələrdə qadınlara qarşı onların fiziki, cinsi və ya psixoloji toxunulmazlığının pozulması ilə nəticələnən gender əsaslı zorakılığın bütün formalarının kriminallaşdırılmasının və ya cinayətin ağırlığına uyğun hüquqi sanksiyaları mütənasib ölçüdə artırılmasını tövsiyyə edir. |
| Maddə 120. Qəsdən adam öldürmə<br><br>120.2. Qəsdən: | *120.2.13. məişət zorakılığı zəminində adam öldürmə—* | İstanbul Konvensiyası, maddə 33-42 |
| Maddə 126. Qəsdən sağlamlığa ağır zərər vurma | *Maddə 126. Qəsdən sağlamlığa ağır zərər vurma*<br><br>*126.2.6. məişət zorakılığı zəminində törədildikdə—* | |
| Maddə 127. Qəsdən sağlamlığa az ağır zərər vurma | *127.2.5. məişət zorakılığı zəminində törədildikdə—* | |

| | | |
|---|---|---|
| Maddə 128. Qəsdən sağlamlığa yüngül zərər vurma | *Qeyd: Bu Məcəllənin 128-ci maddəsində nəzərdə tutulan əməl məişət zorakılığı zəminində törədildikdə iki min manatdan beş min* manatadək miqdarda cərimə və ya *iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması* və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. | |
| | *Maddə 132. Döymə*<br><br>*Bu Məcəllənin 128-ci maddəsində göstərilən nəticələrə səbəb olmayan məişət zorakılığı zəminində qəsdən döymə və ya sair zorakı hərəkətlərlə fiziki ağrı yetirmə*<br>*min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.* | |
| Maddə 133. Əzab vermə | *133.1-1. Bu Məcəllənin 126 və 127-ci maddələrində göstərilən nəticələrə səbəb olmayan məişət zəminində mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə—dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.* | Məişət zorakılığının cinayət hesab edilən formalarına qarşı daha effektiv cavab tədbirləri tələb olunur. Bu məsuliyyət yerinə yetirilmədikdə, dövlət hüquqların bərabər müdafiəsi təminatlarını yerinə yetirə bilməz. |
| Maddə 141. Qanunsuz abort etmə | *141.2-1. Məişət zorakılığı zəminində qadını abort etdirməyə məcbur etmə, yəni zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi məcburetmə vasitələri ilə* | İstanbul Konvensiyası maddə 39 |

| | | |
|---|---|---|
| | *abort etdirməyə məcbur etmə və ya abortun qarşısını digər formada alma.* | |
| Maddə 145. Qanunsuz azadlıqdan məhrum etmə | *145.2.7. məişət zorakılığı zəminində törədildikdə—<br>üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.* | |
| Maddə 149. Zorlama | *149.2.6. məişət zorakılığı zəminində törədildikdə - beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.* | İstanbul Konvensiyası, maddə 36 |
| | *Maddə 149-1. Cinsi zorakılıq məqsədi ilə təqib*<br><br>*Təqib, yəni bilərəkdən başqa şəxsə və onun təhlükəsizliyinə ciddi narahatlıq və qorxu hissi keçirməsinə səbəb olan davamlı izlənməsinə, təqibə məruz qalan şəxin arzuolunmaz ünsiyyətə cəlb edilməsinə, toxunulmasına səbəb olan fiziki hərəkətlər, həmçinin müxtəlif ünsiyyət vasitələrindən istifadə etməklə təhdidedici rəftar.* | İstanbul Konvensiyası, maddə 34 |